

# Vətənini və xalqını sonsuz məhəbbətlə sevən dahi şəxsiyyət

**Ulu öndər Heydər Əliyevin parlaq şəxsiyyəti və müdrik dövlətçilik siyasəti, məharətli idarəetmə təcrübəsi, zəngin siyasi irsi və gələcək nəsillərə ötürdüyü siyasətin varisliyi ənənəsi təkcə bizim ölkəmizdə deyil, yaxın və uzaq xarici ölkələrdə də politoloji tədqiqatlar üçün aktual mövzulardandır. Dünyanın bir sıra ölkələrində Heydər Əliyev barəsində kitablar, məqalələr nəşr edilmiş, sənədli filmlər çəkilmiş, ulu öndərin xatirəsi əbədiləşdirilmiş, heykəlləri, büstləri qoyulmuş, adına küçələr, parklar, institutlar verilmişdir. Heydər Əliyevin siyasi irsinə maraq illər keçdikcə daha da artmaqdadır. Xüsusilə də, türk xalqları arasında Heydər Əliyevin şöhrəti, nüfuzu hər zaman diqqətçəkici olmuşdur və SSRİ hökumətinin rəhbərliyindəki yüksək vəzifə məqamından daha çox əzəmətli və nüfuzedici şəxsiyyəti ilə o, bu xalq ehtiramını qazanmışdı. 1990-cı illərin əvvəllərində dərin böhrana sürüklənmiş, parçalanma və müstəqilliyin itirilməsinin astanasında olan, iqtisadi-siyasi və mənəvi çöküş mərhələsi keçirən bir ölkəni üzləşdiyi fəlakətdən xilas edib, sabitlik və inkişaf yoluna yönəldən, öncə qonşular, ardından dünyanın böyük gücləri ilə milli maraqlar zəminində münasibətlər quran Heydər Əliyevin xilaskarlıq missiyası, həlledici anda xalqı birləşdirib öz ardınca apara bilmək qabiliyyəti bir sıra ölkələrin siyasətçiləri üçün əsl ustad dərsləri oldu. Buna görə də Heydər Əliyev haqqında yazılan mötəbər əsərlər xarici ölkələrdə hər zaman maraqla qarşılanmış, yüksək səviyyədə təqdim edilmişdir.**

*Eynulla MƏDƏTLİ,*
*AMEA Fəlsəfə İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru*

Biz bu məqalədə Beynəlxalq Türk Akademiyasının (Xalıkarası Türki Akademiyası) təşəbbüsü ilə hazırlanmış və Qazaxıstanda nəfis şəkildə qazax dilində nəşr edilmiş "Elinə jol aşkan" (Elinə yol açan) kitabında ulu öndərin zəngin və çoxcəhətli siyasi irsinə verilən yüksək qiymətdən söz açacağıq.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş bu kitabın müəllifləri İ.Ağasıyev, Q.Bordyuqov, A.Vlasov və A.Kasayevdir. Maraqlı illüstrasiyalar, fotoşəkillər, rəsmi sənədlərlə, Azərbaycan mütəfəkkirlərindən gətirilən iqtibas və epiqraflarla müşayiət olunan bu kitaba Qazaxıstanın o zamankı prezidenti, Elbası (Elin başı anlamında –E.M.) Nursultan Nazarbayev ön söz yazmışdır. Bu qısa, çox yığcam, ancaq dərin məna tutumlu, səmimi, dostanə yazıda qazax xalqının böyük lideri Heydər Əliyevin uca şəxsiyyətinə, onun şəxsində bütün Azərbaycan xalqına bəslədiyi səmimi hissləri ifadə etmişdir. Nursultan Nazarbayev qeyd edir ki, müasir Azərbaycanın qurucusu, taleyüklü və çətin dövrdə ölkəsinə sədaqətlə xidmət edərək özündən sonra layiqli iz buraxan görkəmli dövlət xadimi Heydər Əliyevin adı qardaş xalqların tarixində xüsusi yer tutur. Qazax xalqının rəhbəri – Elbası yazır: "Mənim Heydər Əlirza oğlu ilə tanışlığım Sovet İttifaqı dövrünə təsadüf edib və müstəqillik zamanı bizim əlaqələrimiz sədaqətli dostluq və qarşılıqlı hörmət müstəvisində daha da möhkəmlənib. Biz ölkələrimiz arasında münasibətlərin inkişaf etdirilməsi, beynəlxalq arenada bir-birimizə qarşılıqlı dəstək verilməsi və bir çox digər məsələlərlə bağlı fikirlərimizi bölüşürdük".

Qeyd etmək lazımdır ki, iki xalqın böyük liderlərinin uzun illər davam edən bu nümunəvi dostluq və əməkdaşlığı bu gün Azərbaycan Respublikası ilə Qazaxıstan arasında bərqərar olmuş etibarlı dostluq və strateji tərəfdaşlığın əsas təməl daşı olmuşdur. Bu gün dünyanın bir sıra ölkələrində, xüsusilə Türkiyədə və digər türk cümhuriyyətlərində Heydər Əliyevin xatirəsinin əziz tutulması və ehtiramla anılması heç də təsadüfi deyildir.

Nursultan Nazarbayev bu məsələyə də öz münasibətini bildirmiş və vurğulamışdır ki, Heydər Əliyevin qardaş xalqlar arasında şəxsiyyətinin dahiliyini bu gün qohum-əqrəba xalqların maraqları naminə fəaliyyət göstərən Türk Şurası, Türk Parlament Assambleyası, Beynəlxalq Türk Akademiyası kimi dövlətlərarası təşkilatların Heydər Əlirza oğlunun ana yurdunda, Naxçıvan şəhərində təsis olunması bir daha təsdiqləyir. Bu fikirlərində aydın görünür ki, qazax lideri Türk xalqlarının hazırkı iş birliyi və yaxınlaşmasında, bu münasibətlərin institutlaşmasında keçən əsrin sonlarında Moskvadan müstəqil Azərbaycana qayıdan Heydər Əliyevin hələ Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi zamandan həyatının sonunadək necə əhəmiyyətli rol oynadığını diqqətlə izləmişdir. Həqiqətən də, hələ Naxçıvanda ikən, 1992-ci ildə Türkiyə Cümhuriyyəti rəhbərləri, yüksək vəzifəli şəxslər, ictimai-siyasi xadimləri, elm və təhsil sahəsində görkəmli simaları ilə müntəzəm təmasları, çoxəsrlik dövlətçilik təcrübəsinə malik, dünya siyasətində öz yeri və çəkisi olan Türkiyə ilə qardaşlıq əlaqələrinin qurulması və etibarlı şəkildə inkişaf etdirilməsində Heydər Əliyevin müstəsna xidmətləri var idi. Nursultan Nazarbayev ön sözün sonunda yazır: "Əminəm ki, Heydər Əliyevin parlaq obrazı, ölkəsinin rifahı naminə əvəzsiz xidmətləri, türkdilli ölkələr arasında əməkdaşlığın inkişafına verdiyi töhfələr qohum xalqların yaddaşında həmişəlik həkk olunacaq".

Burada ayrıca qeyd etməyi lazım bilirik ki, hörmətli Elbası da hazırkı şəraitdə türk xalqları arasında mehriban qonşuluq, səmimi dostluq, etibarlı iş birliyi üçün öz səylərini əsirgəmir, ulu öndərin bu sahədəki siyasətini ardıcıllıqla yerinə yetirən və daha da zənginləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə hər zaman yüksək ehtiram və mənəvi dəstək nümayiş etdirir. Türk Şurasının VII Zirvə Görüşünə Prezident İlham Əliyev tərəfindən Elbasının Qazaxıstanın keçmiş prezidenti və Qazax xalqının lideri olaraq dəvət edilməsi də təsadüfi deyildir. Zirvə görüşündə Nursultan Nazarbayevin "Türk sözü, bu sözün hər bir hərfinin mənim üçün xüsusi mənası var" ifadəsi ilə 27 il bundan əvvəl 1992-ci il oktyabrın 5-də ulu öndər Heydər Əliyevin Türkiyədə təhsil almağa göndərilən 75 nəfər gənclə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirdiyi görüşdə dediyi sözlər necə də həmahəngdir. Heydər Əliyev xatırlatdı ki, o sovetlər zamanı Azərbaycana rəhbərlik edərkən, 1976-cı ildən etibarən hər il böyük əksəriyyəti azərbaycanlılar olmaqla minlərlə gənci Sovet İttifaqının təxminən 50 şəhərindəki ali məktəblərdə təhsil almağa göndərirdi. Ulu öndər deyirdi: "...Mən o dövrdə gənclərimizin bir qisminin də Türkiyədə təhsil almasının çox həsrətində olmuşam. Çünki, Türkiyə ilə Azərbaycan tarixən son dərəcə yaxın olublar. Bunu sübut etməyə ehtiyac yoxdur. Lakin o vaxtlar belə bir imkan yox idi".

Tələbə gənclərə tarixi öyüdlərini verən, onlara yol göstərən Heydər Əliyev həmin görüşdə aşağıdakı fikirləri ayrıca vurğulamışdı: "Bizim dilimiz birdir: Biz Naxçıvanda da türkük. Ancaq Türkiyənin türkcə dili var, Azərbaycanda azərbaycanca türk dili var. Bunların müəyyən fərqləri var. Biz güman edirik ki, bizim gənclər orada türk dilinə dərindən yiyələnəcəklər".

Kitabın birinci fəslində Azərbaycan Xalq Cümhuriyyətinin tarixi və fəaliyyəti öz əksini tapmışdır. Burada ulu öndərin Azərbaycanın zəngin dövlətçilik tarixinə, xüsusilə 1918-1920-ci illərdə fəaliyyət göstərmiş AXC irsinə münasibəti ayrıca göstərilmişdir. Qeyd edilməlidir ki, siyasətdə varisliyin necə böyük əhəmiyyətə malik olduğunu dəyərləndirən və bunu əməli fəaliyyətində, müstəqil Azərbaycanın dövlət quruculuğunda yaradıcılıqla tətbiq edən ulu öndər 2003-cü il mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin təşkilinin 85-ci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində demişdir: "Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi".

İkinci fəsildə 1918-ci ilin yazında erməni daşnaklarının Azərbaycanın Zəngəzur bölgəsində xalqa divan tutduğu, 115 kəndin dağıdılıb-talan edildiyi, əhalinin qaçqına çevrilib öz doğma yurdlarını tərk etməyə məcbur edildiyi tarixi sənədlər və faktlarla təsvir edilir. Bu qaçqın ailələr sırasında doğma Comərdli kəndini tərk edən Əliyevlər ailəsinin də Naxçıvana pənah gətirdiyi şərh edilir.

Qeyd etmək lazımdır ki, burada Heydər Əliyevin həyatının Naxçıvan dövrü daha çox onun özünün və ona yaxın olan şəxslərin xatirələri əsasında maraqlı dildə şərh edilir, eyni zamanda, həmin illərdə Naxçıvanda elmi-ədəbi mühit dəyərləndirilir, bu bölgədə XIX əsrin 30-cu illərindən fəaliyyət göstərən rus-tatar məktəbindən, həmçinin zaman-zaman burada yetişən mütəfəkkirlərdən, görkəmli şəxsiyyətlərdən, o cümlədən yerli yaradıcı ziyalılardan rəğbətlə bəhs edilir.

Müəlliflər Heydər Əliyevin necə güclü iradəyə və qətiyyətə sahib olan bir gənc olduğunu, onun öz məhəbbəti uğrunda mübarizə apardığını "Savaş və məhəbbətin sınağı" fəslində oxuculara təqdim edirlər. Burada Heydər Əliyevin 1941-1945-ci illərdə Sovet qoşunlarının İranda yerləşdiyi, Seyid Cəfər Pişəvərinin başçılığı ilə Təbrizdə Azərbaycan Milli Hökumətinin qurulduğu zaman onun Naxçıvanda Dövlət Təhlükəsizlik Xidmətindəki fəaliyyətlərinə toxunulmuş, bu mühüm sahədə onun həyat yolu 1969-cu ilədək ardıcıllıqla izlənmişdir.

Kitabın növbəti fəsli "Respublikaya xidmət" adlanır. Burada Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi vəzifəsinə təyin edilməsi, 1969-cu ilin avqust plenumundan sonra respublikanın iqtisadi, sosial, mədəni, mənəvi sahələrdə inkişafına Heydər Əliyevin rəhbərliyi, hətta SSRİ-nin xarici siyasətinə aid olan məsələlərə belə cəlb edilməsi, sonra isə 1982-1987-ci illəri əhatə edən mürəkkəb Kreml həyatı izlənmiş, onun xarizmatik bir siyasi lider olaraq ölkə həyatında və siyasətində oynadığı rol əksini tapmışdır.

Burada qeyd olunur ki, SSRİ-nin İraqla əlaqələrinin möhkəmləndirilməsi məsələsi ortaya çıxanda bu ölkəyə səfər edəcək Sovet lideri olaraq Heydər Əliyev seçildi. Kitabda Heydər Əliyevin bu səfəri ilə əlaqədar çox maraqlı bir təfərrüat da yer almışdır. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əliyevin 2 avqust 1972-ci ildə Kommunist Partiyası Mərkəzi Komitəsinə ünvanladığı "Məxfi" qrifli 412 saylı məktub belə adlanır. "Sovet – İraq siyasi və mədəni əlaqələrinin bundan sonra inkişafı və möhkəmləndirilməsinə dair bir sıra təkliflər". Burada qeyd olunur ki, 1971-ci ilin dekabrında İraqda Azərbaycan SSR-in timsalında İraq-Sovet dostluğu dekadası keçirildi. İraqdakı Sovet səfirinin məlumatına görə bu dekada İraqda böyük siyasi hadisəyə çevrilmiş, Azərbaycan xalqının Sovet hakimiyyəti illərində qazandığı nailiyyətlərin böyük təbliğatı əhəmiyyətə malik olduğu vurğulanmışdır. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Kreml qarşısında SSRİ-nin, xüsusən Azərbaycan SSR-in nailiyyətlərinin İraqda təbliğinin genişləndirilməsi, o cümlədən İraqın türkmən əhalisi arasında bu işlərin aparılmasını təklif etməsi diqqətçəkicidir. Bu sənəddə İraq gənclərinin, o cümlədən türkmən gənclərinin Bakıda təhsilə cəlb edilməsi, mədəniyyət günləri çərçivəsində bundan sonra da mədəniyyət və incəsənət xadimlərinin, şair və yazıçıların, kino işçilərinin müntəzəm əlaqələr qurmasının vacibliyinin təklif edilməsi onu göstərir ki, Azərbaycanın rəhbəri Heydər Əliyev mənsub olduğu xalqa, onun digər qardaş türk xalqları ilə əlaqələrinə necə önəm verirdi.




Bu fəsildə həmçinin Heydər Əliyevin SSRİ-nin əksər Ümumittifaq əhəmiyyətli layihələrinə rəhbərlik sahəsindəki genişmiqyaslı fəaliyyətinə yer ayrılmışdır. Baykal-Amur magistralına rəhbərlik, ölkənin digər meqalayihələrinin reallaşmasında Heydər Əliyevin xidmətləri öz əksini tapmışdır. Kommunist Partiyası və Sovet dövləti qarşısındakı xidmətlərinə görə SSRİ Ali Sovetinin Heydər Əliyevə iki dəfə Sosialist Əməyi Qəhrəmanı adı verməsi, Heydər Əliyevin ali təhsil, səhiyyə, mədəniyyət sahəsində gördüyü işlər, qazandığı ümumxalq məhəbbəti burada əks olunmuşdur. Kitabda həyat yoldaşı görkəmli alim, akademik Zərifə xanım Əliyevanı vaxtsız itirən Heydər Əliyevə Sovet İttifaqı rəhbərliyinin ünvanladığı başsağlığı, həmçinin 21 oktyabr 1987-ci il tarixində Heydər Əliyevin öz ərizəsi əsasında səhhəti ilə əlaqədar pensiyaya göndərilməsi və SSRİ Nazirlər Sovetində Dövlət müşaviri təyin edilməsi haqqında sənədlərin verilməsi də diqqətçəkicidir. Kitabın "Birlik meydanında", "Ümumxalq liderinin qayıdışı", "İrs və varislik" fəsilləri ulu öndərin Kremldən sonrakı həyat və fəaliyyətini işıqlandırır. Sovet rejiminin Azərbaycana hərbi təcavüz etdiyi 20 yanvar 1990-cı il tarixindən sonra onun böyük bir cəsarətlə xalqının dərdinə şərik çıxması və Azərbaycan xalqına qarşı qanlı cinayət törədən sovet rejimini kəskin ittiham etməsi, Vətənə dönüşü, Naxçıvanda həyata keçirdiyi tarixi fəaliyyət, Azərbaycan dövlətçiliyinin qorunması və inkişaf etdirilməsi sahəsində atdığı addımlar, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi ağır blokada şəraitində olan bu qədim türk yurdunun qorunması sahəsində həyata keçirdiyi tədbirlər, qonşu Türkiyə və İran respublikaları ilə yaratdığı yüksək münasibətlər ətraflı şərh edilmişdir. Qeyd etmək lazımdır ki, bu zamanlar Naxçıvana Ermənistan tərəfindən həmlələr, silahlı basqınlar, yaşayış məntəqələrinin atəşə tutulması, insanların girov götürülməsi kimi təcavüz halları davam edirdi, bəzi hallarda bunların qarşısı alınsa da vəziyyət ağır olaraq qalmaqda idi. Bakı-Naxçıvan, Bakı-İrəvan qatarları tez-tez dayandırılır, sərnişinlər girov vəziyyətinə düşürdü. Naxçıvan ərazisində də ermənilərin bu hərəkətlərinə adekvat cavablar verilirdi. Ermənistana gedən qatarlar saxlananda isə Naxçıvana Moskvanın və Azərbaycan rəhbərliyinin təzyiqləri güclənirdi. Belə bir şəraitdə, 22 iyul 1990-cı il tarixində ulu öndər Heydər Əliyev gözlənilmədən Naxçıvana gəldi. Bu gəlişin əhalidə yaratdığı ümid işığını elə ilk gün on minlərlə adamın iştirak etdiyi izdihamlı görüşdə müşahidə etmək olardı. Xalq öz sevimli rəhbərinə, uzun illər Azərbaycana uğurla və şərəflə xidmət etmiş, SSRİ hökumətinin başında duranlardan biri olmuş Heydər Əliyevə tanrının göndərdiyi xilaskar kimi baxırdı.

Çox keçmədən Azərbaycan rəhbərliyinin və onun Naxçıvandakı funksionerlərinin təzyiqinə baxmayaraq fərdi təqaüdçü, heç bir vəzifə və imtiyaza malik olmayan Heydər Əliyevi Naxçıvan seçiciləri həm Azərbaycan Respublikası Ali Sovetinə, həm də Naxçıvan Muxtar Respublikası Ali Sovetinə deputat seçərək böyük xilaskarlıq missiyası üçün ona yol açdılar. Hələ sıravi deputat kimi Naxçıvandakı hadisə və prosesləri milli müstəqillik yoluna istiqamətləndirən, bir sıra inqilabi dəyişikliklərə şəxsi töhfəsini verən Heydər Əliyevin Azərbaycan Ali Sovetinin tribunasından erməni təcavüzü şəraitində bağışlanmaz passivlik və prinsipsizlik göstərən, hələ də Moskvanın diqtəsilə öz xalqına münasibətdə xəyanətkarlıq edən respublika rəhbərliyini kəskin tənqid etməsi və vəziyyətdən çıxış yolları göstərməsi xalqda bu inamı bir daha möhkəmlətmişdi ki, yalnız Heydər Əliyev xalqı bu çıxılmaz vəziyyətdən qurtara bilər. Belə bir şəraitdə 3 sentyabr 1991-ci il tarixində Naxçıvan Muxtar Respublikasının Ali Məclisi deputatlarının hamısının yekdilliklə səs verməsi və Muxtar Respublika əhalisinin dəfələrlə təkidli tələbi ilə Heydər Əliyev Muxtar Respublikanın Ali Məclisinə sədr seçildi. Həmin dövrdə Naxçıvandakı ictimai-siyasi prosesləri izləyən və dərindən təhlil edən akademik İsa Həbibbəyli yazır: "Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr vəzifəsinə seçilməsi geniş mənada Azərbaycanda dövlət hakimiyyətinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilmiş ümumrespublika əhəmiyyətli tarixi hadisədir. Azərbaycan xalqı Naxçıvan Muxtar Respublikasında ümummilli vəzifələri qətiyyətlə həyata keçirən Heydər Əliyevin simasında ölkəmizin müstəqilliyinin qarantı olacaq qüdrətli dövlət xadimini görür, ona böyük ümid və inam bəsləyirdi".

Kitabda 1993 və 1998-ci illərdə xalqın böyük əksəriyyətinin səsini qazanan Heydər Əliyevin on illik prezidentliyi dövründə Azərbaycanda etibarlı daxili sabitlik və təhlükəsizliyin təmin edilməsi, tarazlı xarici siyasət kursunun müəyyən edilməsi, ölkənin dayanıqlı inkişaf və demokratiya yoluna çıxarılması, bir sözlə, müstəqil dövlət quruculuğunun təmin edilməsi sahəsində həyata keçirilmiş məqsədyönlü tədbirlərə ətraflı yer ayrılmışdır. Burada Azərbayan Prezidentinin ölkənin bütün gələcək inkişafını və eyni zamanda, beynəlxalq münasibətlər sistemində layiqli yerini təmin edən xarici siyasət kursunun, uğurlu neft strategiyasının, xüsusilə Rusiya ilə, aparıcı Qərb ölkələri ilə bərabər münasibətlərin qurulub inkişaf etdirilməsindəki əvəzsiz xidmətləri yüksək dəyərləndirilmişdir. Müstəqil Azərbaycan dövlətçiliyinin memarı kimi təqdim olunan Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, siyasətdə varislik xəttinin Azərbaycanın iqtisadi, siyasi, mədəni yüksəlişinə və çiçəklənməsinə gətirib çıxardığı hüsn-rəğbətlə vurğulanmışdır.

Kitabın sonuncu fəslində dünyanın görkəmli adamlarının, tanınmış ictimai-siyasi xadimlərinin ulu öndər haqqındakı fikirləri, xatirələri sırasında akademik Ramiz Mehdiyevin, Zbiqnev Bjezinskinin, Şimon Peresin, Eduard Şevardnadzenin, Leonid Kuçmanın, Yevgeni Primakovun və başqalarının dəyərli xatirələri və dəyərləndirmələri yer almışdır. Burada onlardan yalnız bir örnək vermək istərdik. 1994-2005-ci illərdə Ukraynanın prezidenti olmuş Leonid Kuçmanın ulu öndərlə bağlı çox geniş müsahibəsi verilmişdir. Leonid Kuçmanın ulu öndəri müdrik və uzaqgörən dövlət adamı, güclü iradəyə və mətin xarakterə malik siyasətçi kimi, etibarlı və diqqətli dost kimi anması diqqətçəkicidir. Qeyd etmək lazımdır ki, Leonid Kuçma Ukraynada Heydər Əliyevə Yaroslav Mudrıy ordenini təqdim edərkən demişdi: "Müdriklik və şöhrət, – bu sözlər tam anlamında Heydər Əliyevi təcəssüm etdirir. Siz bir Prezident kimi dövlətin siyasi və iqtisadi məsələlərini həll edərkən zəkanızı nümayiş etdirirsiniz, öz fəaliyyətinizlə Azərbycanın şöhrətini bütün dünyaya, Avropaya, ən əsası isə bütün Qafqaz regionuna yayırsınız". Qazaxıstan lideri, Elbası Nursultan Nazarbayev də Heydər Əliyevi Vətənini və xalqını sonsuz məhəbbətlə sevən bir şəxsiyyət kimi yüksək dəyərləndirərək yazmışdır: "O, həqiqətən də öz ölkəsini sonsuz dərəcədə sevirdi və eyni zamanda, təbiətcə xüsusi insan idi". Həqiqətən də, müstəqil Azərbaycanda rəhbərliyə qayıdanda "Mən bundan sonrakı ömrümü Azərbaycana xidmət etməyə həsr edəcəyəm" deyən ulu öndər mənalı və şərəfli həyatının sonunadək böyük Azərbaycan sevgisi ilə yaşadı, Vətəni sevməyin və ona son nəfəsə kimi xidmət etməyin əsl nümunəsini göstərdi.